# Sözün Lənkəran səhnəsində

## "İslanmış göz yaşı"nın damcıları

**Poeziyanı şair ruhunun çiçəkləri də adlandırmaq olar. Küləklər çiçəkləmiş ağacları yenilədikcə adama elə gəlir ki, çiçəkli budaqlar sonsuz sevgi duyğuları ilə süslənmiş olduqlarından sevinirlər. Çırpınan budaqlar danışır, yazın gəlişinə sevinir, qışın bozluğundan çıxmağına sevinir. Çiçəklər həyatın təzədən dirilişdən keçdiyinə xəbər məktublarıdır. Təbiətin hansısa sirli, ecazkar aləmindən günümüzün özünə, ruhumuza, varlığımıza üz tutmuş məktublar.**

Şair üçün də hər bir poetik lövhə sözün bədii siqlətindən, sözün estetik təsir gücündən duyğular alan insanlar üçün təbiət çiçəklərinə bənzər məktublardır. İnsan ruhunun çiçəkləri poeziyanın ecazkar, ruhu dinləndirən, insanın düşüncəsini, qəlbini ehtizaza gətirən misralar bədii lövhələr şəkilində üzə çıxır.

Balayarın poetik yaradıcılığı elə bütövlükdə çiçəkləmiş insan ruhudur. Zamanına görə, vaxtına görə, şairin özünün ovqatına görə bu poetik çiçəklər rəngini dəyişir. Müxtəlif çalarlarda özünü göstərir. Kədərin və sevincin qovuşuğunda yaranmış təzə rənglər təkcə ruhumuzu oxşamır, həm də gözlə görünən ecazkar löhfə kimi gözlərimizin özünü də oxşayır. Hələlik sonuncu kitabına da şairin ruhunun çiçəkləri kimi baxırıq. Ancaq təəssüf ki, ola bilsin yaşın, yaxud, şəxsi kədərinin təsiri altında payız çənindən, payız şehindən islanmış çiçəkləri bu kitabda daha çox görmək mümkündür. "İslanmış göz yaşı" (2020) adlanan kitabın kədər motivi nə qədər güclü olsa da, bu payız çiçəklərini soldura, bu payız çiçəkləri bürüşdürə, bir sözlə, bu payız xalısını qara rəngə boyaya bilmir. Çünki hər misranın içində canlı bir insan ürəyi çırpınır.

Kitabda əvvəlcə iki sonet çələngi təqdim olunur. Şair birinci çələngi "İslanmış məktub" adlandırır və onu ömür-gün yoldaşının unudulmaz xatirəsinə həsr edir. Sonet janrının sərt tələbləri çərçivəsində qələmə alınmış bu çələngin əsas qaynağı şairin ömür-gün yoldaşını vaxtsız itirməsi oldu. Təbiidir ki, burada kədərin rəngi daha üstün olacaq. Ancaq nə qədər üstün olur olsun, bu rəng şairin yaradıcılıq əzmini qıra bilmir. Onun varlığını dağıtmaq gücündə olmur. Sonsuz kədərin və sərhədsiz sevginin bir-biri ilə dil tapıb qoyuşduğu məqam şair üçün sözünü fikir dərinliklərindən çəkib üzə çıxarmaq imkanı yaradır. Elə ona görə də ağır itkinin göynəyən həsrəti ilə qısa müddətdə şair "İslanmış məktub" çələngini araya, ərsəyə gətirir. Doğrudur, şair qızına müraciətlə başlayır. Və sonetin tələbinə uyğun olaraq elə ona müraciətlə də bitirir. Sonetlərin sıralanması ilə hər bənddən götürülmüş misraların birliyində sonuncu sonet yaranır. Və sanki misralar ayrı-ayrı bəndlərdən götürülməyib, ayrı-ayrı sonetlərdən yığılmayıb. Sanki elə əzəlindən bir bütöv kimi, Allahın biçdiyi təbiət donu kimi üzə çıxıb. Şübhəsiz bu da şairin ruhunun poetik əhval üstündə sonsuz bir güclə səfərbər olunmasının təzahürüdür.

Əsərin sonsuz kədər motivini insanı əhdə, vəfaya, sədaqətə, sonsuz sevgiyə çağıran səsini eşitməmək mümkün deyil:

Belə qərib-qərib ağlama, qızım,
Gözü doluxsunub xatirələrin.
Nakam bir ananın son məktubudur,
Göz yaşı qoxulu çiçək əllərin.

Payızın ovcunda səbrim islanır,
Yelkənsiz qayığam dərd dənizində.
Könlüm sətir-sətir can verir hər gün,
Sənin ləpirində, sənin izində.

Yenə görüşünə gəlmişəm sənin,
De, niyə dinmirsən, səbrinə qurban?!
İsin göz yaşımla, hava soyuqdur,
Əyninə geydiyin qəbrinə qurban.

Təbiidir ki, bu şeirdə əsas obraz göz yaşıdır. Əslində, sanki şairin, əgər belə demək mümkünsə, lirik qəhrəmanın bağrının başı közə tutulub. Köz onun bağrını, sinəsini közərdə-közərdə yandırır. Onun varlığından süzülən, alovlu-alovlu sızan qan damlaları dərd közlərinin üstünə düşür. Şeirdən aldığımız ovqat sanki bu közün cızıltıları ilə müşayiət olunur. Elə bil ki, köz özü ağlayır. Bəlkə də, elə şair lirik qəhrəmanın təsəvvüründə yaşadığı hissin təsiri ilə kitabını da ilk sonetlər çələngini də göz yaşının islanması obrazı ilə bağlayır. Beləliklə, lirik qəhrəmanın ağrısı təkcə bir şairin özünün ağrısı olmaqdan çıxır. Bütövlükdə insanlığın ağrı yükünə çevrilir. İnsanlığın dərdinə, insanlığın faciəsinə, vaxtsız itki göynəminə əks-səda kimi yaranmış olan poetik çələng bəşəri məzmun kəsb edir. Onun qəfil əsən əcəl küləyi ilə savaşı olmasa da, tale savaşı var. Əslində elə əcəl küləyi tale obrazıdır. Külək əsirsə, təbiətdə nəyinsə yerini dəyişə bilər. Lap köklü ağacı da aşıra bilər, yıxa bilər, yerini dəyişə bilər. Ancaq tale küləyi insanların aləmindən əsir, varlığından əsir. Gözlə görə bilmədiyimiz insan dünyasında ümid güzgüsünü sındırır, aşırır, dağıdır. Elə Balayar özü bunu daha sərrast deyir: "Elə qəfil əsdi əcəl küləyi, düşüb çilikləndi bu alın yazım". Beləliklə, məzar üzərində üşüyən laylaların, əyinə geyinən qəbirlərin, məhəbbət ətirli baş daşının... bitib tükənməyən hiss, ovqat obrazlarının hər biri Balayarı dövrümüzün görkəzmə bir şairi kimi təqdim edir. Onun yerini israrla göstərir, təkidlə Balayarı sözünün sarayında hakim görmək istədiyini bəyan edir.

Kitabda ikinci sonet çələngi - "Həsrət qoxulu misralar"ı şair "mini sonetlər çələngi" adlandırır. Bu çələngdə əsas motiv Balayarın çox uğurlu mövzusu, insanın ali hissi, məhəbbətin tərənnümüdür. Ancaq burada da kədər həsrət duyğuları ilə qovuşaraq hər bir sonetin içindən tufanlı külək kimi burula-burula keçir. Şair ağ saçın sevginin üzünə ağ olmağını önə çəksə də yenə könül istəyinin qalib bayrağı misralar arasındakı duyğularla dalğalanır.

Sevgi məktubudu sənin gözlərin, -
Mənim gözlərimə yazılıb, ömrüm.
Quran ayəsi tək hər kipriyindən,
Tanrı təbəssümü asılıb, ömrüm.

Sevgimin üzünə ağ olub saçım,
Könül bəyazlığın "çəkir altını".
Duyğular endirir öz bayrağını,
Ürək imzalamır "təslim aktını".

Unuda bilmədim, məni bağışla,
O çiçək ətirli nurlu baxışlar,
Ağlımı başımdan elə aldı ki...

Bu çələngin sonluğunda şair ağrı ilə yazır ki, (əslində bu sonuncu sonetin özü də çələngin digər bəndlərdəki misralarından hörülüb. Sözün qızıl kərpiçli bir evi kimi görünür.) "candan ağrı-ağrı mən sökülmüşəm, Bax bir salamatam, yoxsa ölmüşəm. Götür öz ovcuna qəlbini yoxla". Demək sevgisində o qədər əmindir ki, özünü tərəf müqabilinin ürəyi kimi görür. Ağrı-ağrı sökülsə də, onun bütöv məhəbbəti dözümlüdür, güclüdür və dağılıb sökülən deyil. Balayarın sevgi şeirlərini oxuyanda düşünürəm ki, bəlkə elə Füzuli də təzədn doğulub dövrümüzə gəlsəydi, özünün sevgi duyğularını elə bu cür qeyri adi obrazlarla təqim edərdi.

Balayar sözü kimi diri şairdir. Payız onun poeziyasının ovqatına hakim olsa da, onu hələ yollar yorğunu kimi görmürük. Sözünün qısqıvraq sahibi kimi görürük:

Doğrudur, duyğu gözlə görünmür deyirik, amma Balayarın şeirlərində duyğuların gözlə görünə bilən rəngləri var. "Bir damla payız" şeirinin misraları boyu qan kimi çağlayıb gedən duyğulara baxaq: "Adından islanıb bu payız yağışı... Bir yarpaq ümid yoxdu yarasını sarayım bu ürəyin... Əllərim uzaqlarda qalıb, Sənsizliyin kölgə saldığı yerlərdə... Payızı sərmişəm yollara bəlkə insafın üşüdü bir payız... Ovcumu tutmuşam ürəyimin altına, sən damcılayırsan..." Özünü sevgisinin ürəyi kimi görən şair sevgisini də özünün ürəyi kimi görür. Ona görə də onun ovcu ürəyindən süzülən ruhu ilə dolur. İstəyirsən bunu göz yaşı adlandır, istəyirsən köz yaşı hesab elə. İstəyirsən dərd, ağrı yaddaşı kimi gör. Hər halda bütün bunlar şair yanğısının təzahürüdür. Bu şeiri kitabda verilmiş xeyli sayda lirikanın xülasəsi kimi də qavramaq olar.

Kitabda şairin üç lirik poeması da verilib. "Şəhid anası" (bu mövzu Balayarın yaradıcılığında xüsusi yer tutur və bu barədə biz artıq müəyyən qədər fikir demişik), "Həriflərin hərifi" (neopoema İmadəddin Nəsiminin 650 illiyinə həsr edilib), "Sözün Lənkəran ətri" (nostalji poema) əsərləri də xüsusi maraqla oxunur. Xüsusilə, Nəsimiyə həsr olunan poemanın sonluğunda utanan misraları ilə Nəsiminin dərisini soyan Allahsızların əvəzindən çəkdiyi xəcalətini ifadə edir: "Allahın kövrələn vaxtıdır... Misralar utandığından hərflərin üzündə gizlədir Allahın göz yaşını... Hərflər susur... sən danış... və misra təzələ Sözün yaddaşını..." Nəsiminin ölümündən 650 il sonra şair təkcə onun cəlladlarının əvəzindən utanmır, həm də həmin qətl məqamında yer üzünü silkələməyən Allahın əvəzindən utanır. Zənnimcə şair Allaha çox sərt qınaq eləyir; əgər cəlladların üzərinə daş yağmamısansa Nəsiminin ölümünə göz yaşı tökməyinin nə mənası var.

Bu misralara təsadüfi baxmaq olmaz... şairin uzun zamandan sonra təzədən sağalmayan göynəmli yara kimi açıq qalan dərdə elegiyası haqsızlığa etirazıdır. Yəni bu gün kimsə haqsız bir hökm verirsə, lap uzun zamandan sonra olsa belə, bunun əvəzini ödəməlidir. Onun ruhu insanların qınağı ilə edama çəkiləcək. Hər halda yəqin cəlladların da ruhu olmamış olmaz.

Balayar Sadiqin müasir sözün aparıcı simalarına həsr olunmuş şeirləri var. Və elə burada yada salıram ki, onun bir şeiri də Əli Rza Xələfli ağrılarına güzgü tutub. Və həmin şeiri "Azərbaycan" jurnalında dərc etdirib.

Salam, dostum!
Xələflidə
gözüyaşlı qalan xatirələr
hər gecə ətəyini yığıb
sənin misralarının işığında
keçir Xudafərindən...

...Dostum,
nə yaxşı qəlbində
hələ də
dəniz-dəniz dalğalanır
bir misra ümid...

Əvvəlindən və sonluğundan təqdim olunan misralar içinə yığdığı duyğuları ilə şahidlik edir müəllifin öz müasirlərinin mənəvi mühitlərindəki doğmalıq yerinə... Balayarın "Sözün Lənkəran ətri" nostalji poeması ayrı bir aləmdir. Elə bil ki, cənub mirvarisini ovcuna alıb baxırsan. Günəşin dəniz, dağ, meşə harmoniyasındakı işığı bu mirvaridə min bir çalarla parıldayır, göz qamaşdırır. Cazibə yaradır, sözün nəbzini tutan hər kəsin ruhunu oxşayır.

Mən "Sözün Lənkəran ətri" poemasını birəl-birəl, diqqətlə oxudum. Əvvəlcə Lənkəranın özünü gördüm: "Salam, yaşıl gözlü yaşıl şəhərim! Yenə yazdı... Yenə bu yazın ürəyimi yaşıl-yaşıl yazdı". Sonra şair xatirələrinin işığı ilə yaddaşının dar dolanbaclarından keçir. Qabağındakı bir stəkan çayda Vaqif Hüseynovun həsrətinin buğlanmağını görür. Xatirəxatirə gözlərindən damcılayan bir misra Tərlanı, bir misra Nurəddini, bir misra Cavidanı və bir cümlə Qafar Cəfərlini seyr edir. Roman-roman MəmmədHüseynin, sonet-sonet Şəkər Aslanın, sərbəst-sərbəst İltifat Salehin, qəzəl-qəzəl Mirhaşımın, Mirsalamın ruhları ilə dilləşir. Unudulmaz Məmməd Kazımın xatirəsini məmnunluqla xeyirxahlığın ucalığında lövhəyə çevirir. Və "sənət dünyasında səsi-sorağı bəlli, sözün zirvə qoxusudur Ağacəfər Həsənli" deyir.

Camal Yusifzadənin xatırlanması yiyəsiz qalmış evin yiyəsini çağırmağa bənzəyir. Xatirə Xatunun "beyti" ilə xatirələrin unudulmaz küçələrinə su səpir. "Fövcül füsəha"nı qafiyə-qafiyə gülümsəyən görür.

**(Davamı 12-ci səhifədə)**

# 3.Sözün Lənkəran səhnəsində

*(Əvvəli 6-cı səhifədə)*

Elçin Mirzəbəylini yaşıl şəhərin alın yazısında təbərrük kimi əzizləyir. Fəxrəddin Teyyubun misralarına dəmir ağacını qovuşdurur. Qərib-qərib Baloğlan Cəlili, zindan-zindan Tofiq Həsənlini, əruz-əruz Oktay Zəkanı, ziya-ziya Ziyafət Əkbərlini, fəsil-fəsil Əli Nasiri epitetləyir. Yaşıllığın aprel qoxusunda kövrək misraları ilə nakam Anarı yad etməmiş ötmür. Həbib Səfərin, Məmməd Həbibin, Məsudi dövranın, Elşad Səfərlinin, Nadir Müzəffərin, Etibar Vəliyevin, Əzizxanlı Qardaşxanın adları epitetlənir. Hər biri də öz düşüncə məkanlarına uyğun olaraq. Qızılbaş Əlisa Nicat bu yerdə necə yada düşməyə bilər. Şair onu “göz yaşı” muzeyində gördüm deyir. İdrakın şahmatında, Xanəhməd Nahidin tale yolu sözdən keçir. “Heç unutmaq olarmı, “yanmış budaq üstə oxuyan” Ağamir Cavadı...” Ağamir Cavad bu gün əyalətdə yaşayan və poetik nəfəsi ilə paytaxtacan yol açan bir şairdir. Təbiəti ilə insanlığa çox doğmadır. Elə ona görə də BALAYAR Sadiq onu unudulmaz kimi görür. Dəniz gözlü Əhməd Haqqsevər, ürəyi ilə məşələ dönən Əliməmməd, naringi, limon, mandarin qoxulu Lənkəran gecələrini xatırladan Elxan Sovulu, Mirhafiz Bahadır doğmalığı, Sərraf Talıbın, Azad Zülaloğlunun dostu Əlisəfanın obrazları ilə görüşmək oxucu yaddaşında möhtəşəm həyat teatrının səhnəsini canlandırır. Sevda Əlibəylinin, Qüdrətin, Kamal Rəhmanın, Etibar Əhədin, Həzi Əliyevin, Xudaverdi Cavadın, İltifat Əhmədin, Yadulla oğlu Sehranın, Adil Əsədlinin, Gülməmməd Məmmədzadənin, Vəlişahın, Səfər, Xanım Dil-rubanın... hər birinin adına, ünvanına uyğun söz seçimi Balayarın ustadlı-ğından başqa həm də bu mühiti dərindən bilməyindən xəbər verir.

Bu gün mənəvi mühitimizdə xüsusi yeri olan naşir, yazıçı Şəddad Cəfərovun, dilçilik elmində mötəbər sözü ilə görünən Məsud Məhəm-mədovun, bəlkə hələ nə qədər adları yada düşməyən mötəbərin hər birinin Lənkəran xalısının ecazkar lövhələridir.

Şair görkəmli alim Yadulla Ağazadənin elm yolundakı hərəkətini cürətli addımların sahibi kimi xatırlayır. Həqiqətən Yadulla Ağazadə cəfakeş-liklə ədəbi-elmi mühitimizdə ayrıca bir orbit yaradıb. Lənkaranın folkloru adlandırılan Yaşar Rzayev, yurdun söz dünyasında söz ovqatı olan Həzi Əliyev, yazıçı Hafiz Mirzə, hekayə ustadı Səyavuş Süleymanlı, yurd sevdalı Mübariz Süleymanlı, şair İslamın kövrək təbiəti, Süleyman Hüseynovun,Ş Səmayə Güləli qızının, Höçətullanın, Xudaqulunun, Malik Şərifin, Hacı Hüseynin, Ağababa Nakamın, Qəzəlxan Xilqətin, bir çox başqalarının adları misra-misra, söz söz danışır. Şairimn sərhədsiz mənəvi dünyasında söz sahibləri kimi görünürlər.

Beləcə “Sözün Lənkəran səhnəsi”ndə “İslanmış göz yaşı”nın damcıları ilə biz də ruhumuzu yuduq. Sözün göyüzünə doğru gözəgörünməz yolu ilə özümüzdən ucalara doğru can atdıq.

***Əli Rza XƏLƏFLİ***
***02.04.2021***